# SADƏ SUALLARA CAVAB VERMƏK



BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

Azercell


Birgə və
Sağlam İB
“Autizm portalı”
BİRGƏ VƏ SAĞLAM
İCTİMAİ BİRLİYİ
Azercell

# SADƏ SUALLARA CAVAB VERMƏK



Uşaq bir neçə əşya üçün istək bildirən zaman ona əşyaları adlandırmağı öyrətməyə başlaya bilərsiniz. Övladınıza adlandırmağı öyrətməyin ən yaxşı yollarından biri ən sevdiyi mükafatların şəklini çəkmək və ardından bu əşyaları adlandırmasını istəməkdir. Bu zaman gerçək əşyaları istifadə edə bilərsiniz, amma bunu çox da tövsiyə etmirik, çünkü o zaman əşya üçün istək bildirmə ilə adlandırma arasında qarışıqlıq yaşana bilər. Şəkilləri istifadə etmək uşaqlarda bacarıqlar arasında əlaqə qurmaqda asanlıq yaradır. Adlandırmağı öyrətmək və bir davranış üzrə bacarığı digər davranışda da tətbiq etmək üsulu bu kitabda daha geniş izah olunub. Fərqli bacarıqlar dedikdə nə nəzərdə tutulduğunu anlamaq məqsədiylə "adlandırma"ğın gördüyünüz, eşitdiyiniz, qoxladığınız, daddığınız və ya toxunduğunuz bir şeyi etiketləmək olduğunu ağlınızda tutmağınız hələlik yetərli olacaq.



# DƏYƏRLƏNDİRMƏ

Dil səviyyəsi aşağı olan uşaqları dəyərləndirdiyimizdə uşaqlar arasında məşhur olan mahnıların boşluqlarını doldurmalarını təmin edirik. Bu bacarığı dəyərləndirmənin açarı uşağın dəfələrlə dinlədiyi bir mahnını söyləməkdir. Hər misradakı son sözü demədən buraxın. Misal üçün, "mini mini bir quş donmuşdu" mahnısını söyləyərkən yüksək səslə və yavaş-yavaş mahnıya başlayın: "Mini mini bir quş ....", son sözü söyləməyin. Övladınız boşluğu sözlə doldurmazsa "donmuşdu" deyərək siz tamamlayın. Ardından növbəti misraya keçin, "Pəncərəmə ....". Bir neçə saniyə uşağın boşluğu doldurması üçün gözləyin, "qonmuşdu" söyləməsə, siz söyləyib tamamlayın.

Övladınız mahnılarda tək sözü doldura bilirsə, bir sonraki mərhələdə gündəlik həyatda qarşılaşdığımız daha funksional cümlələrdəki boşluqları doldura bilməsini izləyin. Bu nöqtəyə çatmısınızsa, belə bir cümlə deyə bilərsiniz: "Yuxumuz gələndə yatdığımız yer .....", "Su içmək üçün gərəkli olan şey .....". Bu zaman uşaq "çarpayı" və "stəkan" sözləri ilə doldura bilib-bilmədiyinə baxın. Uşağın bu cür sadə doldurula bilən söz arası bacarıqlara hakim olması gərəkdir ki, daha mürəkkəb olan, misal üçün "Uçan bir şey de", "Üç rəng de" və ya "Hansı meyvə sarıdı?" kimi ifadələri cavablaya bilsin. Söz arası başqa bir insan tərəfindən zəmin hazırlanmış bir suala verilmiş cavab olduğunu ağlınızda tutmağı unutmayın.



# TƏDRİS

Bu hissədə necə öyrədəcəyinizi öyrənəcəyiniz bacarıq, söziçi olaraq bilinən sadə suallara cavab vermək bacarığıdır. Bu bacarıq söhbət edə bilməyin əsası olan, soruşulan suala cavab verə bilmək bacarığıdır. Övladı autizmli olan çox ailə həsrətlə övladlarının onlarla söhbət etməsini gözləyir. Artıq bunun sehrli bir şey olmadığını, sistematik şəkildə baş verəcəyini bilirsiniz. Övladınızın sizinlə bir gün  söhbət edə biləcəyinə inanın. Aşağıda bacarıqları göstərilmiş şəkildə tipik bir söhbətə nəzər salaq:

Aysun: Sizi burda öncə heç görməmişəm.

Cəmil: Bəli, Gəncədən yenicə köçmüşəm buraya.

Aysun: Nə gözəl! Gəncəni çox sevirəm

Cəmil: Bəs paxlavasını necə? Onu da sevirsiniz mi?

Aysun : Bəli!

Gördüyünüz kimi, tipik bir söhbətdə bir çox verbal bacarıq var. Yüksək səviyyədə adlandırma bacarığı və şərhlər ümumiyyətlə maraq cəlb etmək üçün edilən istək bildirmələrdir və çox zaman söhbət başlatmağa xidmət edirlər. Bunların içərisində "Köynəyini çox bəyəndim" və ya "Çox gözəl havadır" kimi ifadələr vardır. Söhbətin ikinci yarısı artıq məlumat qazanmağı hədəfləyən istək bildirmələrdir və "Harda yaşayırsan?", "Ora necə getmisən?", "Niyə belə etdin?" kimi suallar ortaya çıxır. Bu mürəkkəb istək bildirmək bacarıqlarını inkişaf etdirmək üçün autizmli uşaqlara verilən təlimatların çox aydın və dəqiq olması lazımdır.  Bundan xeyli müddət - aylar və ya illər keçdikdən sonra uşağa əşyalar və fəaliyyətlər üçün istək bildirmək bacarığı öyrədilir.    Söhbətin son parçası isə söziçi reaksiyalardır. Söziçinin təşviqedicisi şifahi bir stimuldan ibarətdir. Exolaliya deyiləndə öyrədənin söylədiyi sözün eynən söylənməsi gözlənilir. Söziçi bacarığını, exolaliyadan ayıran tərəfi isə uşağın verəcəyi söziçi reaksiyasının, öyrədənin ipucunda yer alan tamamilə fərqli bir söz dəsti tələb edir.



Biraz qarışıq gələ bilər, amma əslində başlanğıc səviyyəsində söziçi öyrətmək çox zaman asandır, çünki tədris bağça mahnıları kimi əyləncəli fəaliyyətlərlə sadə boşluq doldurmaları əhatə edir. Təcrübədən misal verək, ana iki yaşında olan bir uşaq mahnılarda, filmlərdə son sözü tamamlaya bilmək bacarığını təsadüfən hiss etmişdi. Ayrıca dəyərləndirmələr əsasında çox uşağa natamam cümlələr verib və onlar da validyenləri edə bilməz dedikləri halda boşluqları doldura bilirdilər.

Söziçi bacarıqlarını öyrətməyə başladığınızda, övladınızın bələd olduğu mahnıları seçin. Bir çox animasiya musiqisi uşaqlar üçün sehrli təsirə malikdir. “Cücələrim” nəğməsi, az danışan uşaqlar üçün çox yaxşı bir seçimdir. Sizi təqlid etdikdən sonra “cücələrim” və ya “cip-cip” nəğmənin daxilində asanlıqla verə biləcəyi reaksiyalardır.

Boş buraxılan sözləri doldurmağı öyrətmək, funsional bir bacarıq olub gün ərzində tətbiq oluna bilər, çünki bir çox günərzi qayğı mərkəzi və uşaq bağçalarında bu mahnıların tez-tez söyləndiyi fəaliyyətlər edilməkdədir.

Əgər övladınız danışa bilirsə, belə bir söziçi məşqi seçin ki, doldurması gərəkən boşluq övladınınzın bildiyi bir söz olsun. Ən yaxşısı, uşağın sevdiyi və onu motivasiya edən bir nəğmə seçərək çalışmalara başlayın, yavaş-yavaş və hərəkətlər qataraq nəğməni söyləyin, ardından son sözə gəldiyinizdə bir-iki saniyə səssiz qalın, yəni “Cip, cip .....”. Əgər uşaq reaksiya verməzsə, sözü nəğmə şəklində deyin. Sonra nəğməyə davam edin.

Həmzə bacarığı aşağıdakı kimi öyrənir:

Ana: “Cip, cip (2 saniyə səssizlik) CÜCƏLƏRİM!

Həmzə: Oturub və gülümsəyir.

Ana: “Cip,cip C.....”

Həmzə: “Cücələrim”

Ana: Mükəmməl dedin, gəl bir daha yoxlayaq. Cip, cip ...

Həmzə : “Cücələrim”.



Hər söylədiyi nəğmədə iki və ya üç hədəf söz seçin. Misal üçün bu nəğmədə cücələrim/ qəşəng sözlərini hədəfləmisinizsə, Barney-in "Səni sevirəm" nəğməsindəki hədəfiniz sən/ mən olacaq. Bu nəğmələrin ikisində də hədəflənən sözlər tez-tez təkrarlanır və uşaqların da çoxu bu nəğmələri söyləməyi çox sevir. Həmzə bu dörd hədəfdə ustalaşdığı zaman dərhal bu nəğmələrdən əlavə yeni sözlər seçin və ya övladınıza başqa bir nəğmə söyləyin.

Övladınız bir çox nəğmənin misralarında natamam buraxılan son sözü tamamlamada ustalaşdığı zaman, geriyə zəncirləməni başladın və cümlədəki son iki sözü boş buraxın. Əgər Həmzə "Qışda, şaxtada, buzda günəş çimir...." dediyinidə "hovuzda" deyirsə, növbəti mərhələdə hədəfiniz "çimir hovuzda" olacaq.

Boşluq doldurma üçün iki və ya üç saniyədən çox gözləməyin çünki övladınıza sözləri fiziki ipucuyla söylədə bilməzsiniz. Əgər bu metod işə yaramasa, oyuncaq hovuz və ya hovuz şəklini qaldıraraq ipucu olaraq verə bilər, adlandırmağı söziçinə köçürə bilərsiniz. Danışdığımızın nəyə bənzəyəcəyinə bir nümunə verək:

Ana: Hovuz şəklini əlində göstərib "Bu nədir?" deyə soruşur.
Həmzə: "Hovuz".
Ana: " Doğrudur". Hovuzu yerə qoyur. "Qışda, şaxtada, buzda günəş çimir ...." hovuzu yuxarı qaldırır və "Hovuz" deyə nəğməni yüksək səslə söyləməyə davam edir. "Bir dəfə də cəhd edək. "Qışda, şaxtada, buzda günəş çimir ..." hovuz şəklini yuxarı qaldırır.
Həmzə: "Hovuz"
Ana: "Super dedin, hovuz ... Qışda, şaxtada, buzda günəş çimir ..." Şəkil göstərilmir.
Həmzə: " Hovuz".

Eyni prosses digər nəğmələrin öyrədilməsində, əyləncəli fəaliyyətlərdə və ya gündəlik rutinləri edərkən də çox işinizə yarayacaq. Boşluq doldurmağı gün boyunca istifadə etmək həm dili bastırılmış olaraq təqdim edər, həm də bir oyun vəsaiti halına gətirir. İşarət dili istifadə edən uşaqlar, ustalaşmış olduqları bir istək bildirmədə bildikləri bir işarəti istifadə etsəniz, bu fəaliyyətdən daha çox yararlanırlar. Əgər uşaq topla oynamaq istədiyində "top" işarəti edə bilirsə, ilk zamanlarda təqdim olunan boşluq doldurma "Tut bu ...." ola bilər. Yaxud köpük sevən bir uşağa "Üfürüb .... edək" deyə bilərsiniz və uşağın "köpük" sözünü işarət diliylə söyləməsinə icazə verirsiniz.

Bəlkə də hal-hazırda bütün bu transfer prosseslərinin necə anlamlı bir söhbətə dönüşəcəyini düşünürsünüz. Dərhal dönüşməyəcək. Bura başlanğıc nöqtəsidir. Övladınız nəğmələrdən kiçik hissələr söyləyə bildiyi zaman və boşluq doldurma texnikasında ustalaşdığında, hədəfinizi biraz daha yüksəldə bilərsiniz. Növbəti söziçi bacarıqlarını müəyyən etmək üçün övladınızın ustalıq qazandığı adlandırma siyahısına baxın.

Adlandırma siyahısında indidən onlarla adlandırma olmalıdır. Bunların içində yataq, qələm, pizza, pişik kimi sözlər vardır; əşyaların xüsusiyyətləri və funksiyaları üzərində çalışmağa bu adlandırmalarla başlayın. Edəcəyiniz təsviredici açıqlamaların sonunda hədəflədiyiniz ad gələcək şəkildə boşluq buraxacaqsınız. Əşyaların xüsusiyyətlərini, funksiyalarını və ya sinfini öyrədərkən bu adlandırmaları istifadə edəcəksiniz. Siz “Sənin yatdığın şey ....” dediyinizdə uşaq “yataq” deyə reaksiya verməlidir ya da “miyav, miyav deyir.....” dediyinizdən sonra gözlədiyimiz reaksiya “pişik” olacaq.

Növbəti mərhələyə keçdiyinizdə şəkillə ipucu verə biləcəyiniz adları istifadə edin. Bu önəmlidir, çünki qələm rəsmi göstərərək “Tutaraq yazı yazdığın şeyə ..... deyilir” şəklində açıqlamaya ipucu vermək asan olduğu halda, “Qələmi tutub yazı” şəklində qısa bir cümləyə ipucu vermək də olduqca çətindir.

Uşaqların çoxu “Harada yatırsan?” kimi boşluqlu sualları doldurmaqda ustalaşmadıqca (“Sənin yatdığın yer ....”) cavablamağı bacarmırlar. Övladınız boşluğu olan sadə sualları doldura bildiyi andan etibarən vizual ipuclarını seyrəkləşdirməyə başlaya bilər və sualları daha çətinləriylə əvəz edə bilərsiniz.

Aşağıda bir neçə transfer nümunəsinə baxaq, tranfer sadə suallardan daha mürəkkəblərə doğru edilmişdir. Nümənələrin keçərli reaksiyaların sayılması üçün vizual ipucuyla başladılması gərəkdir.

Ana: “Sənin yatdığın yer?”
Həmzə: “Yataq”
Ana: “ Doğrudur, yatdığın yer haradır?”
Həmzə: “Yataq”
Ana: “Doğrudur, Nə ilə su içirsən?”
Həmzə: “Stəkanla”



Mütləq övladınızın axıcı bil şəkildə adlandırma edə bildiyi sözlərlə çalışdığınızdan əmin olun; misal üçün əgər övladınız “maşın” sözünü adlandıra bilmirsə, “Təkərləri olan şeyə ..... deyilir” kimi bir sual verdiyinizdə ya qarışıq bir reaksiya alacaq, ya da ümumiyyətlə, heç bir reaksiya ala bilməyəcəksiniz. Təcrübədə olan bir misalı nəzərdən keçirdək. Bir uşağa “Qanadları olan şey nədir?” deyildiyində “təyyarə” deməsi öyrədilmişdir. Bununla bağlı sözün əsl mənasında bir dərs almışdıq. Təyyarənin qanadlarını göstərib uşağa bu hissələrin nə olduğunu soruşduğumuzda, uşaq “qanadlar” deyib adlandıra bilmədiyi zaman bir proqramlama xətası etdiyimizin fərqinə vardıq. Övladınız üçün çox az məna ifadə edən və onun dünyasında funksional olmayan cümlələri övladınıza əzbərlədirmiş kimi olmanızın heç bir məqsədi yoxdur. O səbəbdən övladınıza söziçi suallara necə cavab verəcəyini, sözü gedən əşyaların olmadığı bir yerdə öyrədən olmadan öncə eyni əşyanın həm adlandırmasını, həm də xüsusiyyətlərinin öyrətdiyinizdən əmin olun. Bir gün sinifdə uşaqlardan bir cümlə içindəki boşluğu doldurmaları istənmişdi: “Saçaqları olan şeyə ..... deyilir”. Cavabın isə “Süpürgə” olması gözlənilirdi. Həqiqi bir süpürgə göstərildiyində belə saçaqları adlandıra bilən şagird çıxmadığı kimi saçağın nə olduğunu da bilən tipik şağird sayı bir neçə nəfəri keçməmişdi. On yaşında olan, amma dil inkişafı üç yaşa uyğun gələn bir uşaqla çalışırsınızsa, adlandırmalarınızı və söziçi tətbiqlərinizi inkişafa uyğun seçin. Söziçi reaksiyalar üzərində çalışarkən, adlandırma bacarıqlarında tətbiqlərə davam etməlisiniz, yoxsa adlandırma bacarıqları darmadağın ola bilər. Övladınızın pişiyə “Miyav” dediyini və ya pizza şəkli  gördüyü zaman “ pizza ye” dediyini eşitməyə başlamısınızsa, bəzi adlandırmaların yetəri qədər güclü olmadığını anlamalısınız. Bu dəfə adlandırma bacarıqlarını zəiflədən söziçi hədəflərini irəlilətmədən ələ alıb, geriyə dönmək və sadə adlandırmalarda uşağa axıcılıqı qazandırmaq ediləcək ən yaxşı iş olacaqdır. “Həftə sonu nə etdin?” və ya “Bu gün məktəbdə nələr etdin?” kimi sualları cavablaya bilməsi gərəkdirən daha yüksək səviyyəli söziçi bacarıqları öyrətmək isə çox daha mürəkkəb və çətindir. Əgər uşağınız bu səviyyəyə gəlibsə, işarət edəcəyimiz bir neçə nöqtə olacaq. Cavabını bilmədiyimiz sualları soruşmayın. Övladınızın o gün məktəbdə nə etdiyini bilməyin  bir yolunu tapıb müəllimiylə əlaqədə olmağa çalışın, beləliklə gərək olarsa, ipucu verə bilərsiniz. Övladınız təməl söziçi bacarıqlarının hər birində ustalaşdıqdan sonra daha yüksək səviyyəli söziçi bacarıqları üçün ən sevdiyi DVD-ləri və ya kitabları istifadə edin. DVD-ni dayandırıb və ya kitabı bağlayıb, “Pişik hardadır” və ya “Pişik nə edir?” kimi bir neçə sual verin. Yüksək səviyyəli adlandırmalar və söziçi bacarıqları müəllimənin açarı birbaşa  verilən ipucunu gecikdirərək təqdim etməkdən keçir. Deyək ki, uşağın problem həll etməyə başlamasını və daha çevik cavablar verməsini istəyirsiniz. O zaman bu nümunəyə baxaq, əgər minnoş “oyuncaq hekayəsi” filmində yatağın altındadırsa və “Minnoş hardadır?” sualına övladınız ya heç cavab vermir, ya da “Bilmirəm” deyirsə,  “Yatağın altında” deyərək ipucu verməyin. Bunun yerinə yatağı göstərərək “Bu nədir?” deyin, övladınız “yataq” deyəcəkdir, siz də “Çox doğrudur, o zaman minnoş hardadır?” deyərək cizgi film qəhrəmanının yatağın altında olduğunu əlinizlə işarə edin. Uşaq sualınızın cavabını video açıq ikən cavabladıqdan sonra söziçi suallarınızı vizual stimullaşdırıcı olmadan cavablamasının zamanı gəlib deməkdir. Bu bacarıq çətindir. Övladınız ədatları çox axıcı bir şəkildə istifadə etmədən o kitabdakı və ya filmdəki bütün əşyaları, xarakterləri adlandırmadan, qətiyyən bu tərz yüksək səviyyəli adlandırmalara və söziçi bacarıqlarına keçməyin, belə bir fəaliyyətə cəhd göstərməyin.